# İnfrastrukturun yenilənməsi dövlətimizin təhsil sahəsi üzrə prioritet istiqamətidir













## Bölgələrdə yeni məktəb binaları istifadəyə verilib

Sentyabrın 14-də Abşeron rayonu Masazır kənd 6 nömrəli tam orta məktəb üçün yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra tədbir iştirakçıları yeni tikilmiş məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, sözügedən məktəb 960 şagird yerlikdir. Yeni tikilən məktəbdə 40 sinif otağı ilə yanaşı fənn kabinetləri, informatika kabinetləri, laboratoriyalar, STEAM təlimləri üçün otaqlar, qızlar və oğlanlar üçün ayrı-ayrı emalatxanalar, icma əsaslı məktəbəqədər təhsil üçün otaq və digər yardımçı otaqlar var. Bundan əlavə, idman zalı, yeməkxana da fəaliyyət göstərir.

Məktəb açılışından sonra Abşeron rayonu üzrə təhsil işçilərinin bilik konfransı keçirilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov dövlət səviyyəsində təhsil sahəsinə göstərilən diqqət və qayğıdan, son illər yenilənən məktəb infrastrukturundan danışıb. Eyni zamanda ötən tədris ilində baş verən və yadda qalan mühüm struktur dəyişikliklərdən söz açıb.

Daha sonra Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxış edərək yüksək təchizatlı yeni məktəblərin tikintisi, eyni zamanda ötən tədris ilində məzunların yüksək nəticə göstərməsinin uğurlu təhsil siyasətinin nəticəsi olduğunu qeyd edib.

***

Sentyabrın 9-da yeni tikilmiş Kürdəmir şəhər R.Quliyev adına 5 nömrəli tam orta məktəbin açılış mərasimi keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Muxtar Məmmədov, Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, Kürdəmir rayonu üzrə təhsil sektorunun müdiri Rəfail Məmmədov, məktəbin adını daşıyan şəhid Rüstəm Quliyevin ailə üzvləri iştirak ediblər.

Mərasimdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Dövlət Himni səsləndirildikdən və şəhidlərimizin xatirəsi yad edildikdən sonra tədbir açıq elan edilib.

Çıxış edən qonaqlar təhsildə keyfiyyətin artırılması və infrastrukturun yenilənməsinin dövlətimizin təhsil sahəsi üzrə prioritet istiqaməti olduğunu bir daha diqqətə çatdırıblar və məktəb kollektivini təbrik ediblər.

Sonda tədbir iştirakçıları məktəbdə yaradılan şəraitlə tanış olublar.

***

Sentyabrın 12-də Goranboy rayonunda M.Zeynalov adına Dəliməmmədli şəhər tam orta məktəb və F.Rüstəmov adına Tap kənd tam orta məktəb üçün yeni tikilmiş tədris binalarının açılış mərasimi keçirilib.

Açılış mərasimlərində elm və təhsil nazirinin müavini Muxtar Məmmədov, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbir iştirakçıları daha sonra hər iki məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, Goranboy rayon Tap kənd tam orta məktəbinin binası 204 şagird yerlikdir. İki mərtəbəli təhsil müəssisəsində 16 sinif otağı, 1 informatika kabineti, 3 laboratoriya, müəllim otağı, elektrik otağı, həkim otağı, 2 texniki otaq, 32 yerlik bufet, qəbul otağı, qarderob və 6 sanitar qovşağı müəllim və şagirdlərin ixtiyarına verilib.

Goranboy rayon M.Zeynalov adına Dəliməmmədli şəhər tam orta məktəbinin binası isə 906 şagird yerlikdir. Üç mərtəbəli təhsil müəssisəsində 38 sinif otağı, 3 informatika kabineti, 4 laboratoriya, müəllim otağı, elektrik otağı, həkim otağı, 2 texniki otaq, 100 yerlik bufet, qəbul otağı, 380 yerlik akt zalı, qarderob və 21 sanitar qovşağı müəllim və şagirdlərin ixtiyarına verilib. Emalatxanada tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. İdman zalı zəruri avadanlıqlarla təchiz olunub.

***

Sentyabrın 13-də Qobustan rayonunda Əbülfəz İbrahimov adına Nabur kənd və Əlvan Nəbiyev adına Təklə Mirzəbaba kənd tam orta məktəbləri üçün yeni tikilmiş tədris binalarının açılış mərasimi keçirilib.

Açılış mərasimlərində Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Rövşən Əliyev, Qobustan Rayon İcra Hakimiyyəti başçısı Adil Məmmədov iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbir iştirakçıları daha sonra hər iki məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, Qobustan rayon Təklə Mirzəbaba kənd Əlvan Nəbiyev adına tam orta məktəbi 1969-cu ildə 8 illik məktəb kimi fəaliyyətə başlayıb. 1978-ci ildən 11 illik məktəb kimi fəaliyyətini davam etdirir. Ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Elm və Təhsil Nazirliyinin sifarişinə əsasən məktəb üçün 132 şagird yerlik yeni tədris binası tikilib. Hazırda məktəbdə 10 sinif komplektində 95 şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 23 nəfər müəllim məşğul olur. 2021-2022-ci tədris ilində məktəbi bitirən 11 məzundan 7-si tələbə adını qazanıb.

Qobustan rayon Nabur kənd Əbülfəz İbrahimov adına tam orta məktəbi üçün Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Elm və Təhsil Nazirliyinin sifarişinə əsasən 264 şagird yerlik yeni tədris binası tikilib. Hazırda məktəbdə 17 sinif komplektində 315 şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 30 nəfər müəllim məşğul olur.

***

Sentyabrın 15-də Qəbələ rayonu Zarağan kənd 1 nömrəli tam orta məktəbin açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil nazirinin müavini İdris İsayev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdir müavini Günay Mahmudova, Qəbələ rayon üzrə Təhsil sektorunun müdiri Arifə Bayramova, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Bildirilib ki, məktəb binası 528 şagird yerlikdir. Yeni tikilmiş üçmərtəbəli məktəbdə kimya, biologiya, fizika kabineti daxil olmaqla 26 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, idman zalı, akt zalı, kitabxana, yeməkxana, hərbi təlim, tibb və arxiv otaqları və həyatyanı stadion şagirdlərin istifadəsinə verilib.

***

Sentyabrın 15-də İsmayıllı rayonu Sumağallı kənd tam orta məktəbi üçün yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Rövşən Əliyev iştirak ediblər.

Qeyd edilib ki, İsmayıllı rayonu Sumağallı kənd tam orta məktəbində 12 sinif komplektində 224 şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 20 nəfər müəllim məşğul olur.

***

Sentyabrın 15-də Cəlilabad şəhər 3 nömrəli ümumi orta məktəbin yeni binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil nazirinin müşaviri Tural Ayvazlı, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdiri Elxan Nəcəfov və Cəlilabad rayon təhsil sektorunun nümayəndələri iştirak ediblər.

Bildirilib ki, sözügedən məktəb 624 şagird yerlikdir. Yeni tikilən məktəbdə 27 sinif otağı ilə yanaşı fənn kabinetləri, informatika kabinetləri, laboratoriyalar, qızlar və oğlanlar üçün ayrı-ayrı emalatxanalar, icma əsaslı məktəbəqədər təhsil üçün otaq və digər yardımçı otaqlar var. Bundan əlavə, məktəbdə idman zalı və yeməkxana da fəaliyyət göstərir.